Vaqif Əli oğlu Vəliyev 1924-cü il dekabrın 31-də Qazax rayonunun Pirili kəndində doğulmuşdur. 1932-1941-ci illərdə Qazax şəhər 1 saylı orta məktəbində təhsil almışdır. Əmək fəaliyyətinə 1941-ci ildə Qazax rayon Partiya Komitəsində texniki katib kimi başlamışdır. 1943-1949-cu illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir, 1949-1954-cü illərdə ADU-nun filologiya fakültəsində təhsilini davam etdirmişdir. Orada aspiranturaya daxil olmuş, 1957-ci ildə «Səməd Vurğunun poemaları» mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, Azərbaycan ədəbiyyatı tarixi kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində işləmişdir. 1972-ci ildə «Azərbaycan folkloru janrları» mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1976-cı ildən həmin kafedranın professoru kimi fəaliyyət göstərmişdir. Dövri mətbuatda şifahi xalq ədəbiyyatı problemlərinə dair vaxtaşırı məqalələri çıxmışdır. 1983-cü ildə «Ayrım bəzəmələri» və 1985-ci ildə «Bayatılar» kitablarını toplayıb tərtib etmişdir. 1989-cu ildə Folklor kafedrasının açılması ilə professor Vaqif Vəliyev bu kafedrada fəaliyyət göstərməyə başlamışdır. Azərbaycan folklor nümunələrinin toplanması, tədqiqi və nəşri işində V.Vəliyevin müstəsna xidmətləri olmuşdur. Professor Vaqif Vəliyev «Azərbaycan xalq dastanları», «Azərbaycan şifahi xalq ədəbiyyatı», «Azərbaycan qəhrəmanlıq dastanları», «Qaynar söz çeşməsi», «Azərbaycan folkloru» kitablarının müəllifidir.



# FOLKLORŞÜNAS ALİMİN XATİRƏSİ İŞIĞINDA

Dəyərli folklorşünasımızın ərsəyə gətirdiyi dərslik hal-hazırda da Bakı Dövlət Universitetində və digər universitetlərdə dərslik kimi istifadə olunur. Professor Vaqif Vəliyev 1998-ci il sentyabrın 19-da vəfat etmişdir.

Bu günlərdə BDU-nun Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının təşəbbüsü və təşkilatçılığı ilə S.Vurğun adına auditoriyada folklorşünas Vaqif Vəliyevin 95 illik yubileyinə həsr olunmuş elmi seminar keçirildi. Tədbirin aparıcısı filologiya fakültəsinin folklorşünaslıq üzrə II kurs magistri Arzu Məmmədova: «Xatirələr qocalan beyinlərin söykəndikləri ağ əsadır» - deyə ilk sözü filologiya fakültəsinin dekanı dosent Elçin Məmmədova verdi. O, özünün tələbəlik illərini xatırladaraq qeyd etdi ki, həmin vaxtlar professor Vaqif Vəliyevin «Azərbaycan folkloru» dərsliyi əsas dərslik olmaqla tələbələrin sevimli kitabı idi. Biz o dövrdə bir çox müəllimlərimizlə yanaşı Vaqif müəllimin də həm öyrətdiklərindən öyrənmişik, həm də davranışından öyrənmişik və ağıla, kamala yetmişik. Çox yaxşı haldır ki, biz bu gün işıqlı xatirələr işığında onu anırıq və bu yolla qoy bu günkü tələbələrimiz də Vaqif Vəliyev kimi dəyərli müəllimlərimiz tanısın, onların həyatlarının nümunəvi bir davranış məktəbi olduğunu öyrənsinlər.

Daha sonra söz Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor Səhər Orucovaya verildi. Səhər xanım 1996-cı ildən kafedrada müəllim kimi çalışdığı ilk gündən Vaqif müəllimi bir nurani insan kimi tanımasından danışdı. Onu tanıdığı və bir kafedranın əməkdaşları olduğu iki illik vaxt ərzində yaddaşında xoş izlərlə qaldığını bildirdi. Qeyd etdi ki, ilaxır çərşənbəsi ərəfəsində onunla bağlı bu seminarın təşkil olunması həm də bir folklorşünas alim kimi Vaqif Vəliyevin ruhuna olan böyük ehtiramımızın ifadəsidir. Çünki o, bir alim kimi ömrünü xalqımızın folkloruna, adət-ənənə və mərasimlərinin öyrənilməsinə həsr etmişdi və belə bir gündə onun xatirəsinin yad edilməsi tamamilə təbii bir hal kimi qarşılanmalıdır.

BDU-nun filologiya fakültəsinin dekan müavini, professor Nizami Xəlilov da çıxışında Vaqif müəllimi 1970-ci illərdən tanıdığını qeyd edib, xoş, səmimi xatirələrini bölüşdü. Onun mühazirə dərslərinin seminar saatlarını apardığını bildirdi, bir dəyərli alim kimi və nəcib, humanist insan kimi yüksək mənəvi keyfiyyətlərindən söz açdı.

Tədbirdə dəvət olunmuş Mədəniyyət və İncəsənət Universitetinin müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnar Verdiyeva (Əlfi Qasımovun qızı) valideynlərinin ailə dostları olduğunu bildirdi. Vaqif müəllimin ortancıl qızı olan Ülviyyə xanımla rəfiqə olduqlarını, sonbeşik qızı Təranə xanımın Dillər Universitetində işlədiyini, böyük qızı Məftunə xanımın isə atasının yolu ilə getdiyini diqqətə çəkməklə xatirələrini dilə gətirdi. Təranə xanımın qızının Belçika, oğlunun isə Marietta Universitetində təhsil aldıqlarını, nəvəsi Məhəmməd Vəliyevin magistr təhsili aldığını qeyd edib, bildirdi ki, Vaqif müəllim özündən sonra bu cür nümunəvi, ziyalı övladlar, nəvələr qoyub getdi və bu gün onun ruhu şaddır. Qeyd edək ki, tədbirboyu Vaqif Vəliyevin həyatının müxtəlif anlarında çəkdirmiş olduğu fotoşəkillər slaydla təqdim olundu, həmçinin Azərbaycan folkloru kafedrasının magistrantları Nuranə Qarayeva və Gülnar Musayeva, filologiya fakültəsinin tələbəsi Rüfət Qarayev, jurnalistika fakültəsinin tələbəsi Mehdi Taştad, həmçinin Az.MİU-nun müəllimi Emil Mirzəyev, Az.MİU-nun tələbələri Aqil Bəxtiyar, Kamal Vaqifoğlu, Məftun Səfərli və başqaları ədəbi-musiqili proqramlarla çıxışlar etdilər.

«Yaxşı atanın verdiyi tərbiyəni heç bir məktəb verə bilməz. Vaqif Vəliyevin ən böyük uğuru onun övladlarıdır», - deyən aparıcı Arzu Məmmədova sözü Vaqif müəllimin qızı, dosent Məftunə Vəliyevaya verdi. - Biz evdə atamızı həmişə yad edirik. Bu günkü ədəbi gecədə iş yoldaşlarının atamızı xatırlaması məni kövrəltdi, - deyərək yubiley tədbirini təşkil edənlərə və iştirakçılara minnətdarlıq hisslərini bildirdi.

*Şakir ƏLİFOĞLU*